# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 31** **Bakı şəhəri, 28 yanvar 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 940; 2015, № 2, maddə 240) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1-ci bənddə "Tünd-göy rəngli hərbi nümunəli kepi" sözləri "Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş yay papağı" sözləri ilə əvəz edilsin.

**2.** 3.2-ci bənddə "Tünd-göy rəngli hərbi nümunəli qış papağı" sözləri "Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qış papağı" sözləri ilə əvəz edilsin.

**3.** 3.3-cü bənddə "Tünd-göy rəngli isti içlikli gödəkcə" sözləri "Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş isti içlikli qış gödəkcəsi" sözləri ilə əvəz edilsin.

**4.** 3.4-cü bənddə "Tünd-göy rəngli hərbi nümunəli köynək" sözləri "Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş yay gödəkcəsi" sözləri ilə əvəz edilsin.

**5.** Aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 3.4-1. | Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş qısaqol yay köynəyi və şalvar | 1 dəst | 2 il |

**6.** 3.5-ci bənddə "Tünd-göy rəngli mayka" sözləri "Açıq mavi, qara və boz rənglərlə kamuflyaj edilmiş mayka (qış üçün qalın, yay üçün nazik)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***